AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ

Azərbaycan Respublikası Təhsil Nazirliyinin
F-395 nömrəli 04.09 2020-ci il tarixli qərarı ilə
təsdiq edilmişdir.

AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ
VƏTƏNDAŞLARIN MÜRACİƏTLƏRİ İLƏ İŞ VƏ KOMMUNİKASİYA ŞÖBƏSİ
ƏSLİ İLƏ DÜZDÜR

# BAKALAVRİAT SƏVİYYƏSİNİN

# TƏHSİL PROQRAMI

İxtisasın (proqramın) şifri və adı:– 050312 Populyar musiqi və caz ifaçılığı (sahələr üzrə)

BAKI – 2020

**BAKALAVRİAT SƏVİYYƏSİNİN 050312- POPULYAR MUSİQİ VƏ CAZ İFAÇILIĞI (SAHƏLƏR ÜZRƏ) İXTİSASI ÜZRƏ**

**TƏHSİL PROQRAMI**

## 1. Ümumi müddəalar

1.1 Bakalavriat səviyyəsinin **050312- Populyar musiqi və caz ifaçılığı (sahələr üzrə)** ixtisası üzrə Təhsil Proqramı (bundan sonra ixtisas üzrə Təhsil Proqramı) "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununa, Azərbaycan Respublikasının Nazirlər Kabinetinin müvafiq qərarlarına, eləcə də "Ali təhsilin bakalavriat (əsas (baza ali) tibb təhsili) səviyyəsi üzrə ixtisasların (proqramların) Təsnifatı"na uyğun hazırlanmışdır.

1.2 Təhsil Proqramının məqsədləri aşağıdakılardır:

- İxtisas üzrə məzunun kompetensiyalarını, ixtisasın çərçivəsini, fənlər üzrə təlim və öyrənmə metodlarını, qiymətləndirmə üsullarını, təlim nəticələrini, kadr hazırlığı aparmaq üçün infrastruktura və kadr potensialına olan tələbləri, tələbənin təcrübəkeçmə, işədüzəlmə və təhsilini artırma imkanlarını müəyyənləşdirir;
- tələbələri və işəgötürənləri məzunların əldə etdiyi bilik və bacarıqlar, eləcə də təlim nəticələri barədə məlumatlandırmaq;
- Təhsil Proqramı üzrə kadr hazırlığının bu proqrama uyğunluğunun qiymətləndirilməsi zamanı bu prosesə cəlb olunan ekspertləri məlumatlandırmaq.

1.3 Təhsil Proqramı tabeliyindən, mülkiyyət növündən və təşkilati-hüquqi formasından asılı olmayaraq Azərbaycan Respublikasında fəaliyyət göstərən və **050312 - Populyar musiqi və caz ifaçılığı (sahələr üzrə)** ixtisası üzrə bakalavr hazırlığını həyata keçirən bütün ali təhsil müəssisələri üçün məcburidir.

1.4 Tələbənin 5 (beş) günlük iş rejimində həftəlik auditoriya və auditoriyadankənar ümumi yükünün həcmi 45 saatdır (xüsusi təyinatlı ali təhsil müəssisələri istisna olmaqla). Həftəlik auditoriya saatlarının həcmi ümumi həftəlik yükün 50%-dən çox olmamalıdır.İxtisasın xüsusiyyətindən asılı olaraq həftəlik yükün həcmi dəyişdirilə bilər.

## 2. Məzunun kompetensiyaları

2.1 Təhsil Proqramının sonunda məzun aşağıdakı ümumi kompetensiyalara yiyələnməlidir:

- ixtisası üzrə Azərbaycan dilində şifahi və yazılı kommunikasiya bacarıqlarına;
- ixtisası üzrə ən azı bir xarici dildə kommunikasiya bacarıqlarına;
- Azərbaycan dövlətçiliyinin tarixi, hüquqi, siyasi, mədəni, ideoloji əsasları və müasir dünyadakı yeri və roluna dair sistemli və hərtərəfli biliklərə, dövlətimizin perspektiv inkişafını proqnozlaşdırma qabiliyyətlərinə;

-milli dövlətimizin qarşılaşdığı təhdidləri və çağırışları müəyyən etmə bacarıqlarına;

- iş yerində informasiya texnologiyalarından istifadə etmək qabiliyyətinə;
- komandada iş, problemin həllinə ortaq yanaşmaya nail olmaq qabiliyyətinə;
- yeni şəraitə uyğunlaşmaq, təşəbbüs irəli sürmək qabiliyyətinə və uğur qazanmaq iradəsinə;
- məsələlərin həlli üçün əlavə məlumat resurslarını müəyyən etmək və seçə bilmək qabiliyyətinə;

- peşəkar məqsədlər üçün müvafiq məlumatı təhlil etmək, ümumiləşdirmək və tətbiq etmək bacarıqlarına;
- peşəkar fəaliyyətini planlaşdırmaq və təşkil etmək, gələcək təhsilini və mövcud bacarıqlarını təkmilləşdirilmək, vaxtı idarə etmək və tapşırıqları vaxtında tamamlamaq qabiliyyətinə;
- fəaliyyətində sosial və ekoloji məsuliyyətə, eləcə də vətəndaş şüuru və etik yanaşmaya, həmçinin keyfiyyətə üstünlük vermək bacarığına;
- bilik və bacarıqlarını inkişaf etdirmək məqsədilə vəziyyəti və özünü yenidən qiymətləndirmək və özünütənqid bacarığına.
- gələcək peşə fəaliyyətlərinə dair normativ və hüquqi sənədlərin tərtibinə və onlardan istifadə etməyə, pozulmuş hüquqların bərpa yollarına;
- sağlam həyat tərzini qoruyub saxlamağa;
- mədəniyyətlərarası dialoqa hazır olmağa;
- yeni ideyalar irəli sürməyə və əsaslandırmağa;
- problemli şəraitlərdə təşəbbüskarlıq göstərmək və məsuliyyəti öz üzərinə götürmək bacarığına malik olmağa;
- başqalarından öyrənmək, digərlərinin tələbatlarını, fikirlərini və hərəkətlərini anlamaq, (empatiya) qrupda yaranan konfliktləri həll etmək, problemlərin həllinə yönələrək kollektiv və çoxtərəfli əməkdaşlıqda iştirak etməyə (kollektiv iş kompetensiyası);
- fərqli baxış və yanaşmaların dərk edilməsi və kompleks təhlili, geniş inteqrasiya və dünyada artan müxtəlifliyin fərqli perspektivlərinin ümumiləşdirilməsi bacarığına (multikultural yanaşma və açıqlıq).

***Qeyd:*** *İxtisasın spesifikasından asılı olaraq ümumi kompetensiyalara əlavələr edilə bilər.*

2.2 Təhsil Proqramının sonunda məzun aşağıdakı peşə kompetensiyalarına yiyələnməlidir:

- Azərbaycan vokal məktəbinin ənənələrini qoruyaraq, professional vokal texnikasını mənimsəməlidir;
- vokal texniki vərdişlərin formalaşması nəticəsində estrada və caz ifaçılığı üçün vacib olan peşəkar keyfiyyətləri əldə etməlidir;
- qüsursuz tələffüzə, düzgün tənəffüzə, eləcə də öz səsi haqqında dəqiq və düzgün anlayışa malik olmalıdır;
- İfa üçün mürəkkəb əsərlərdən ibarət zəngin repertuara malik olmalıdır;
- populyar və caz musiqisinin inkişafı və təbliği istiqamətində fəaliyyət göstərməlidir;
- kütləvi tamaşaçı qarşısında geniş konsert proqramı ilə çıxış etməli, pedaqoji təcrübəyə malik olmalıdır;
- müxtəlif üslub və janrlarda yazılan vokal ansambl əsərlərini professional şəkildə təhlil etməyi bacarmalıdır;
- qazandığı bilik, bacarıq və səriştələrdən konsert repertuarının hazırlanmasında istifadə etməyi bacarmalıdır;
- repertuara daxil olan əsərləri ifaçılıq aspektində dəyərləndirməyi bacarmalıdır;
- klassik, populyar və caz musiqisinin repertuarını, habelə Azərbaycan xalq mahnılarının ifaçılıq tərzini mənimsəməli, müxtəlif ifaçılıq üslubları ilə tanış olmalıdır;
- Azərbaycan və xarici ölkə bəstəkarlarının vokal –estrada və caz janrındakı əsərlərinin ifa üslubları ilə tanış olmalıdır;

- caz standartları ifa etməyi bacarmalıdır;
- Azərbaycan xalq musiqi ifaçılığının xüsusiyyətlərini estrada və caz kontekstində nümayiş etdirməyi bacarmalıdır;
- ifa zamanı səs aparatını idarə etməyi, əsərin kantasının qüsursuz ifasını, səs diapazonu, aktyorluq bacarıqlarını nümayiş etdirməlidir;
- janr və üslub istiqamətlərini, repertuar seçimi prinsiplərini bilməlidir;
- musiqi əsəri ilə professional səviyyədə işləməyi bacarmalıdır;
- caz üslubunu hiss etməli, improvizə etməyi və ritm biliklərini əldə etməlidir;
- müstəqil şəkildə vokal əsərinin bədii və texniki xüsussiyyətlərini analiz etməyi bacarmalıdır.
- vokal partiyasını üzdən sərbəst ifa etməyi bacarmalıdır;
- müxtəlif janr və üslubda olan vokal əsərləri hazırlayıb,əsərə rejissorluq etməyi bacarmalıdır.
- konsertmeyster,dirijor və orkestr ilə peşəkar iş birliyinə; "Mənfi-1" fonoqram, mikrofon və elektro cihazlar ilə işləməyi bacarmalıdır;
- əsərlərdə çoxsəsli ifa texnikasına nail olmalı, vokal, estrada və caz sənətinin əsas prinsipləri, metodları və qanunauyğunluqlarını mənimsəməlidir;
- kollektivlə işləməyi, musiqi kollektivi təşkil etməyi bacarmalı, ifa zamanı yüksək bədii-peşəkar nailliyyətlər əldə etməlidir;
- vokal ifaçılıq , estrada və caz sənətinin ifa mədəniyyətinə yiyələnməlidir;
- caz improvizasiya nəzəriyyəsini verilən mövzularda solo ifaçılığında tətbiq edə bilməlidir;
- caz musiqisi ifacılığının spesefik üsulları haqqında nəzəri bilikərə və əməli bacarıqlara yiyələnməlidir;
- caz kompozisiya ifaçılığının spesifik vokal üsullarını bilməliidir;
- caz musiqisinin müxtəlif musiqi elementlərinə: motiv, motiv inkişafı, sekvensiya , ladlar, arpedjioya ilə bağlı təcürbi biliklərə yiyələnməlidir;
- müasir caz forma və mövzularının harmonik və ritmik qanunauyğunlarını bilməlidir;
- müasir caz improvizasiyasının pentatonikasını bilməlidir;
- forma və üslubları ,görkəmli caz ustalarının solo improvizasiyalarını təhlili etməyi bacarmalıdır;
- xarakterik ton, akkord, politonal və polilad uyğunluq, ahəngdən istifadə etməklə müasir caz kompozisiyalarının təhlili etməyi bacarmalıdır;
- İmprovizasianın əsası olan ənənəvi və müasir caz harmoniyasını bilməlidir;
- spesifik harmonik idiomların və onlara aid olan improvizasiya üslublarının təhlilinə yiyələnməəlidir;
- caz standartlarının ifaçılıq şərhini verə bilməlidir;

## 3. Təhsil Proqramının strukturu

Cədvəl 1

| Fənlərin sayı | Fənnin adı | AKTS krediti |
|---|---|---|
| | **Ümumi fənlər** | |
| 1 | **Azərbaycan tarixi**<br>Bu fənn Azərbaycanın müasir dövlətçilik ənənələrinin yaranması, formalaşması və inkişafını öyrənir, müasir Azərbaycan dövlətçiliyinin | 5 |

| | | |
|---|---|---|
| | formalaşmasında siyasi, ideoloji, iqtisadi, mədəni amillərin rolu təhlil və tədqiq edilir. Müasir dünyada Azərbaycan dövlətinin yeri və rolu sistemli təhlil edilir. | |
| 2 | **Azərbaycan dilində işgüzar və akademik kommunikasiya**<br>Bu fənn cərçivəsində tələbələrə Azərbaycan dilində ixtisası ilə bağlı təqdimat etmək, rəvan, dialektsiz şifahi nitqə malik olmaq öyrədilməlidir. İxtisas üzrə nəzəri mətnlər üzərində işləmək , fikir mübadiləsi etmək, işgüzar yazı (ərizə,təqdimat, vəsatət, elektron yazıma və s) bacarıqlarının aşılanmasına xüsusi diqqət yetirilməlidir. | 4 |
| 3 | **Xarici dildə işgüzar və akademik kommunikasiya**<br>Bu fənn çərçivəsində tələbələrə ixtisası üzrə xarici dillərdən birində özü və ixtisası ilə bağlı təqdimat etmək,ixtisas kafedrasının təklif etdiyi mahnı mətlərinin düzgün tələffüz qaydaları üzərində iş və sadə işgüzar yazı (məktub, elektron yazışma və s.) bacarıqlarının aşılanmasına xüsusi diqqət yetirilməlidir. | 15 |
| 4 | **Seçmə fənlər** *(Seçmə fənlər ali təhsil müəssisəsi tərəfindən müəyyən edilir. İxtisasın spesifikasından asılı olaraq seçmə fənlərə əlavələr edilə bilər.)* | |
| 4.1 | Fəlsəfə<br>Sosiologiya<br>Hüququn əsasları<br>Məntiq<br>Etika və estetika | 3 |
| 4.2 | İnformasiya texnologiyaları (ixtisas üzrə)<br>İnformasiyanın idarə edilməsi<br>Sahibkarlığın əsasları və biznesə giriş | 3 |
| | **İxtisas fənləri** | |
| 1. | **İxtisas-populyar musiqi və caz ifaçılığı (sahələr üzrə).**<br>**Populyar musiqi və caz ifaçılığı (vokal sahəsi üzrə)**<br>Bu fənn çərçivəsində tələbələrə vokal texnikası və praktiki vərdişlər, populyar estrada və caz ifaçılığının peşəkarlıq keyfiyyətləri aşılanır. Tələbələrdə yaradıcılıq təxəyyülünün, bədii zövqün, geniş dünya görüşünün formalaşdırılması da bu fənnin öhdəsinə düşür. Konsertmeyster ilə iş birliyi, mənfi –fonoqram və mikrofon ilə işləmək vərdişlərini əldə etməyi, a'kapella ifa bacarığına yiyələnməyi, geniş repertuarı (Azərbaycan xalq mahnıları, Azərbaycan bəstəkarlarının vokal əsərləri, xarici pop və caz musiqisi), caz üslubunun ifaçılıq xüsusiyyətlərini (improvizə,metroritmik xüsusiyyətlər, sving, artikulasiya, standart səs) bilməyi, vokal ifaçılıq sənətinin mədəniyyətinə yiyələnməyi , ifa zamanı bədii obraz yaratmağı öyrətmək ixtisas fənnininin əsas məqsədini təşkil edir.<br>Alətlər üzrə:<br>Bu fənnin əsas məqsəd və vəzifələri professional musiqi nailiyyətlərini əldə | **26** |

| | | |
|---|---|---|
| | etmək, bütün fikrini tam olaraq tələbə və ya ifaçıya yönləndirmək, onların ifa etdikləri hər bir nüansları dəqiqliklə ifada əks etdirməkdir. | |
| 2. | **Populyar musiqi və caz musiqisinin tarixi və nəzəriyyəsi.** Bu fənn populyar və caz musiqi sənətinin yaranması, inkişafı və çağdaş dövrdəki halını, populyar və caz musiqi sənətinin görkəmli nümayəndələri – ifaçılarını, bəstəkarlarının fəaliyyətini, cazın kompozisiya quruluşu, improvizə və inkişaf prinsiplərini öyrədir. Tələbələr caz standartlar haqqında məlumat əldə edərək, caz musiqisinin üslublarını və onların fəqliliyini təyin etmək bacarığına nail olurlar. Bununla bərabər, tələbələrə Azərbaycanda caz musiqisinin yaranma və inkişaf tarixi aşılanır. | **8** |
| 3. | **Vokal ansamblı.** Bu fənn tələbələrdə məhz kollektivdə çalışma sistemini istiqamətləndirir və onlarda yaradıcı düşüncənin formalaşmasına təsir göstərir. Əsərlərdə çoxsəsli ifa texnikasına nail olmağı, repertuara daxil olan əsərləri ifaçılıq aspektində dəyərləndirməyi,müxtəlif üslub və janrda yazılan ansambl əsərlərini professional şəkildə təhlil etmək öyrədir. Ümumən bu fənnin əsas mahiyyəti ansambl iştirakçılarında məhz ansamblının, kollektiv ifa tərzinin spesifik məsələlərinə dair biliklərin formalaşdırılması və ansambl ifaçılığı bacarığının tətbiq edilməsidir. | **14** |
| 4. | **Solfecio.** Bu fənn tələbələrdə musiqi duyumunu, musiqi yaddaşını, təmiz intonasiya vərdəişlərini əldə etmək qabiliyyətinə yönəldilmişdir. Kursun nəzəri materiallarını bütünlüklə mənimsəmək, not mətni ilə işləmə bacarığını əldə etmək, musiqi mətnini dəqiqliklə yazıya almaq, müxtəlif məqam sistemlərinin yaranma prinsiplərini və müasir notasiyanın bəzi üsullarını əldə etmək məqsədi ilə tədris olunur. | **6** |
| 5. | **Multikulturalizmə giriş.**Bu fənn multikulturalizm haqqında ümumi anlayışları, onun inkişaf mərhələlərini, bu sahədə əsas nəzəriyyələrin xüsusiyyətlərini, cəmiyyətdə mövcud olan etnik, irqi, dini və mədəni müxtəlifliklərin qorunması istiqamətində dövlətin apardığı siyasəti öyrədir. Azərbaycan Respublikasının multukulturalizm siyasətinin, sosial-mədəni proseslərin mahiyyətini, onun xüsusiyyətlərini və bu siyasətin ölkədə uğurla həyata keçirilməsinin səbəblərini təhlil edir. | **3** |
| 6. | **Mülki müdafiə.** Bu fənn çərçivəsində fövqəladə hadisələrin qarşısının alınması, onların nəticələrinin aradan qaldırılması, kütləvi qırğın silahları, nüvə silahı, nüvə silahının tətbiqi və nəticələri, nüvə silahının zədələyici amilləri, radioaktiv çirklənmə, bioloji silahlardan qorunma üsulları barədə bilgilər verilir. Karantin tədbirləri, dinc və müharibə dövründə əhalinin mühafizəsinin xüsusiyyətləri fərdi mühafizə vasitələri, qəza və təbii fəlakətlər zamanı xilasetmə işlərinin təşkili və yerinə yetirilməsi qaydaları, kimyəvi silahlar tətbiq edilərkən davranış və fəaliyyət qaydaları, müxtəlif zədələnmə ocaqlarında və təbii fəlakət rayonlarında ilk tibbi yardım göstərilməsində sanitar drujinalarının təşkil olunması haqqında ən zəruri məlumatlar öyrədilir. | **3** |

| | | |
|---|---|---|
| Cəmi | | **60** |
| | **Ali təhsil müəssisəsi tərəfindən müəyyən edilən fənnlər** | |
| Cəmi | | **120** |
| | **Təcrübə və Dövlət Yekun Attestasiya İşi** | |
| ... | **Təcrübə.**Təcrübə musiqi kollektivlərində, Musiqili teatr, Filarmoniya, incəsənət və musiqi məktəblərində, universitetdaxili,eləcə də xarici ölkələrin müvafiq yönümlü ali məktəblərində təşkil oluna bilər. | 21 |
| | **Dövlət Yekun Attestasiyası.** Azərbaycan xalq mahnısı, Azərbaycan və xarici bəstəkarların populyar və caz musiqsindən ibarət olan proqram təqdim edilir. | 9 |

## 4. Tədris və öyrənmə

4.1 Tədris və öyrənmə mühiti elə təşkil olunmalıdır ki, tələbələr təhsil proqramında nəzərdə tutulan təlim nəticələrini əldə edə bilsinlər.

4.2 Tədris və öyrənmə metodları müvafiq sənədlərdə (məsələn, müəllimin sillabusunda və s.) təsvir edilməli və ictimaiyyətə (məsələn, universitetin veb səhifəsində, proqramın broşurlarında və s.) açıq olmalıdır.

4.3 Tədris və öyrənmə metodları innovativ təhsil təcrübələri nəzərə alınaraq davamlı şəkildə nəzərdən keçirilməli və təkmilləşdirilməlidir. Tədris və öyrənmə metodlarının müntəzəm şəkildə təkmilləşdirilməsi universitetin keyfiyyət təminatı sisteminin bir hissəsi olmalıdır.

4.4 Təlim prosesində fərqli tədris metodlarından istifadə edilməlidir. Bu metodlar tələbəyönümlü yanaşmanı və tələbələrin təlim prosesindəki fəal rol oynamasını təşviq etməlidir. İstifadə edilə biləcək tədris və öyrənmə metodlarına aşağıdakıları nümunə olaraq göstərmək olar:

- mühazirə, seminarlar, təcrübə, fərdi və əməli tapşırıqlar;
- müstəqil iş/araşdırma (məsələn, müxtəlif tədbirlərdə çıxışlar);
- layihələr;
- problemlərə əsaslanan tədris;
- sinif konsertləri;
- konsert ifaları;
- hesabatlar;
- qrup qiymətləndirməsi;
- ekspert metodu;
- video və audio konfrans texnologiyaları;
- video və audio mühazirələr;
- distant təhsil;
- simulyasiyalar;
- və s

*Qeyd: sadalanan metodlar ixtisasın spesifikasından asılı olaraq seçilə və (və ya) dəyişdirilə bilər.*

4.5 Təhsildə nəzəriyyə və praktiki təlim arasında tarazlıq gözlənilməlidir. Əsas diqqət əmək bazarının dəyişən ehtiyaclarına uyğun olaraq praktiki bacarıqların gücləndirilməsinə yetirilməlidir.

4.6 Təhsil proqramı tələbələrin müstəqilliyini dəstəkləməli və ömürboyu təlim konsepsiyasını inkişaf etdirməlidir. Təhsil prosesinin sonunda tələbə hər hansı istiqamətdə müstəqil işləyə bilməli və təhsilini ömürboyu davam etdirməyi bacarmalıdır.

## 5. Qiymətləndirmə

5.1 Qiymətləndirmə elə təşkil olunmalıdır ki, tələbələrin gözlənilən təlim nəticələrini əldə etmələri səmərəli şəkildə ölçülə bilinsin. Bu, əldə olunan irəliləyişi monitorinq etməyə, təhsil proqramlarının nəticələrinə hansı dərəcədə nail olunduğunu qiymətləndirməyə, eləcə də tələbələrlə fikir mübadiləsinə şərait yaratmağa və təhsil proqramlarının təkmilləşdirilməsi üçün ilkin şərtlərin formalaşdırılmasına yardım etməlidir.

5.2 Qiymətləndirmə üsulları müvafiq sənədlərdə (məsələn, fənn proqramında, sillabusda və s.) təsvir edilməli və hamı üçün açıq olmalıdır (məsələn, universitetin veb səhifəsində, proqramın broşurlarında və s.).

5.3 Qiymətləndirmə üsulları innovativ tədris təcrübələri nəzərə alınaraq davamlı şəkildə nəzərdən keçirilməli və təkmilləşdirilməlidir. Qiymətləndirmə üsullarının müntəzəm şəkildə yenilənməsi ali təhsil müəssisəsinin keyfiyyət təminatı sisteminin bir hissəsi olmalıdır.

5.4 Tədris prosesində fərqli qiymətləndirmə üsullarından istifadə edilməlidir. Bu üsullar tələbəyönümlü yanaşmanı və tələbələrin təlim prosesindəki fəal rol oynamasını təşviq etməlidir. İstifadə edilə biləcək qiymətləndirmə üsullarına nümunələr:

- yazılı tapşırıqlar;
- fərdi və əməli ixtisas fənləri üçün müvafiq meyarlar əsasında
- bilik və bacarıqlara dair testlər, kompüter əsaslı testlər;
- şifahi təqdimatlar;
- sorğular;
- açıq müzakirələr;
- təcrübə hesabatları;
- frontal sorğu;
- qrup şəklində və özünü qiymətləndirmə;
- konsertlərə dair hesabatlar;
- respublika və beynəlxalq müsabiqə, festival, festival-müsabiqələrə dair hesabatlar;
- və s.

***Qeyd:** sadalanan üsullar fənnin spesifikasından asılı olaraq seçilə və (və ya) dəyişdirilə bilər.*

5.5 Təlim nailiyyətlərinin qiymətləndirilməsində istifadə olunan üsullar aydın müəyyənləşdirilmiş meyarlara əsaslanmalıdır və təhsil müddətində tələbənin əldə

etdiyi bilik, bacarıq və qabiliyyət səviyyəsini düzgün və etibarlı şəkildə müəyyən etməyə imkan verməlidir. Təlim nəticələrinin qiymətləndirilməsi zamanı müəllimlər şəffaflıq, qərəzsizlik, qarşılıqlı hörmət və humanistlik prinsiplərini rəhbər tutmalıdırlar.

5.6 Tələbələrə müəllimlərlə/qiymətləndiricilərlə təhsillərinin bütün aspektlərini, o cümlədən qiymətləndirmə prosesini müzakirə etmək imkanı verilməlidir. Ali təhsil müəssisəsi qiymətləndirmə prosesi, yaxud qiymətlə bağlı apelyasiya prosedurlarını müəyyən etməlidir.

## 6. Proqramın və hər bir fənnin təlim nəticələri

6.1 **050312- Populyar musiqi və caz ifaçılığı (sahələr üzrə)** ixtisası üzrə təhsil proqramının təlim nəticələri, eləcə də hər bir fənnin təlim nəticələrinin müəyyənləşdirilməsi və hər bir fənnin sillabusunun hazırlanması ali təhsil müəssisəsinin/akademik heyətin səlahiyyətindədir.

6.2 **050312- Populyar musiqi və caz ifaçılığı (sahələr üzrə)** ixtisası üzrə təlim nəticələri hər bir ali təhsil müəssisəsi tərəfindən Əlavə 1-dəki formaya uyğun olaraq müəyyənləşdirilir.

6.3 Təhsil Proqramının cəmiyyətin və əmək bazarının dəyişən ehtiyaclarına cavab verən nəzəri və praktiki məzmunu təmin etməsi məqsədilə fənlərin sillabusları müntəzəm şəkildə yenilənməlidir.

## 7. İnfrastruktur və kadr potensialı

**7.1.** **050312- Populyar musiqi və caz ifaçılığı (sahələr üzrə)** ixtisasının təhsil proqramına müvafiq hazırlanmış tədris planında nəzərdə tutulan fənlər üzrə dərslərin aparılması, təcrübələrin keçirilməsi üçün müvafiq İKT ilə təchiz olunmuş kabinet, kompüter sinifləri, musiqi alətləri və s. ilə təmin olunmuş maddi-texniki bazası olmalıdır. Təhsil alanların ali təhsil müəssisəsinin lokal şəbəkəsinə, internetə, məlumat bazalarına, elektron kitabxanalarına, axtarış sistemlərinə çıxışı təmin edilməlidir.

**7.2.** Ali təhsil müəssisələrinin professor-müəllim heyəti, bir qayda olaraq, elmi dərəcəyə, elmi və fəxri ada, incəsənət sahəsində təcrübəyə malik olur. Digər dövlət, yaxud özəl müəssisələrdən və ya digər müvafiq təşkilatlardan gələn şəxslər də tədrisə cəlb oluna bilərlər.

## 8. Təcrübə

**8.1.** Təcrübə tələbənin nəzəri biliklərinin,fərdi və əməli bacarıq və səriştələrinin təcrübədə tətbiqi, eləcə də peşə bacarıqlarının gücləndirilməsi baxımından önəmlidir.

**8.2.** Təcrübə musiqi kollektivlərində, Mahnı teatrı, Filarmoniya, incəsənət və musiqi məktəblərində, universitetdaxili,eləcə də xarici ölkələrin müvafiq yönümlü ali məktəblərində təşkil oluna bilər.

**8.3.** Təcrübədən öncə ali təhsil müəssisəsi və təcrübə təşkil olunacaq müəssisə ilə müqavilə imzalanmalıdır. Eyni zamanda, tələbənin fərdi müraciəti əsasında onun ixtisasına uyğun digər müəssisədə, o cümlədən xaricdə təcrübə keçməsinə icazə verilir. Müqavilədə şərtlər, tələbələrin hüquq və öhdəlikləri və digər zəruri təfərrüatlar əks olunur.

## 9. Buraxılış işi

**9.1.** Təhsil Proqramı buraxılış işi –konsert proqramı ilə tamamlanır.

**9.2.** Təhsil müddətinin sonunda müdafiəyə əvvəlcədən müəyyən edilmiş janrlarda musiqi proqramı təqdim edilir.Qiymətləndirmə Populyar musiqi və caz ifaçılığının komponetlərinə müvafiq meyarlara əsasən qiymətləndirilir.

## 10. Məşğulluq və ömürboyu təhsil

**10.1.** **050312- Populyar musiqi və caz ifaçılığı (sahələr üzrə)** ixtisası üzrə məzun olan tələbələr əsasən dövlət qurumlarında və mülkiyyət formasından asılı olmayaraq musiqi kollektivlərində, Mahnı teatrı, Filarmoniya və s. incəsənət təmayüllü kollektivlərdə çalışa bilərlər.

**10.2.** Ali təhsil müəssisəsi Təhsil Proqramının məzunlarının məşğulluğuna dair müntəzəm sorğular keçirməli, eləcə də vakant iş yerlərinə dair məlumatları öz veb səhifəsində yerləşdirməlidir.

**10.3.** **050312- Populyar musiqi və caz ifaçılığı (sahələr üzrə)** bakalavr proqramının məzunları Estrada sənəti **(sahələr üzrə)** üzrə Magistr proqramlarında davam etdirə bilərlər.

**10.4.** Təhsil müddətində əldə olunan bilik, bacarıq və yanaşmalar məzunların müstəqil şəkildə ömürboyu təhsil almaları üçün ilkin şərtlərdəndir.

**Razılaşdırılmışdır:**

Azərbaycan Respublikasının Təhsil Nazirliyinin Aparat rəhbərinin müavini, Elm, ali və orta ixtisas təhsil şöbəsinin müdiri

____________________Yaqub Piriyev

"25" ____08______2020-ci il

Mədəniyyət və incəsənət ixtisasları qrupu üzrə Dövlət Təhsil Proqramlarını hazırlayan işçi qrupun sədri

____________________Ceyran Mahmudova

"26" ____08__________2020-ci il

**Əlavə 1**

| Təhsil Proqramının təlim nəticələri (PTN) | |
|---|---|
| PTN 1 | **Populyar musiqi və caz ifaçılığı (vokal sahəsi üzrə)**<br>Professional **vokal**- estrada və caz ifaçılıq texnikasını mənimsəyərək, müxtəlif üslublarda olan əsərlərin ifası üçün səs aparatının düzgün formalaşmasına nail olmalı, vokal ifaçılıq sənətinin vərdişlərinə yiyələnməlidir.<br>**Alətlər üzrə:** Professional pop-caz ifaçılıq texnikasınının mənimsənilməsi və təkmilləşdirilməsi üçün fərqli janr və üslub xüsusiyyətlərinə malik olan müxtəlif həcmli əsərləri ifa edə bilməlidir. |
| PTN 2 | **Populyar musiqi və caz ifaçılığı (vokal sahəsi və alətlər üzrə)**<br>Müxtəlif tərkibli caz-vokal və caz- instumental ansambları üçün aranjimanları, caz üslublarını (klassik,ənənəvi və müasir) və caz-roku öyrənməli, öz şəxsi yaradıcılığına uyğun solo ifa etməyi baçarmalıdır. |
| PTN 3 | **Populyar musiqi və caz ifaçılığı (vokal sahəsi üzrə)**<br>Azərbaycan xalq və bəstəkar mahnılarının ifaçılıq tərzini, üslublarını fərqləndirməyi bacarmalıdır.<br>**Alətlər üzrə:** Azərbaycan xalq və bəstəkar yaradıcılığının ifaçılıq, üslub xüsusiyyətlərini mənimsəməliidir |
| PTN 4 | **Populyar musiqi və caz ifaçılığı (vokal sahəsi üzrə)**<br>Caz üslubunu hiss etməli, improvizə etməyi, müxtəlif janr və üslubda olan əsərləri hazırlayıb rejissorluq etməyi bacarmalıdır.<br>**Alətlər üzrə:** Caz ritmlərini hiss etməyi bacarmalı, fərqli üsluba malik olan əsərlər üzərində işləyib onu dərindən müşahidə etmək bacarığına nail olmalıdır |
| PTN 5 | **Populyar musiqi və caz ifaçılığı (vokal sahəsi üzrə)**<br>Populyar musuiqi və caz ifaçılıq sənətinin mədəniyyətinə yiyələnmli, kollektivlə işləməyi, konsertmeyster, dirijor və orkestr ilə iş birliyi bacarığına malik olmalıdır.<br>**Alətlər üzrə:** İfaçılıq sənətinin mədəni irsi xüsusiyyətlərinə yiyələnmək, solist, orkestr və bədii heyyətin kollektivi ilə işləməyi (müşayiət etməyi) bacarmalıdır. . |
| PTN 6 | **Təşkilati və idarəetmə fəaliyyəti:** Yaradıcı kollektivlərə rəhbərlik və həmçinin mədəniyyət ocaqlarında təşkilatı işlərin içrasını bacarmalıdır.<br>Yaradıcılıq kollektivi ilə işləməyi bacarmalıdır. |

**Əlavə 2**

**Fənlərin və Təhsil Proqramının təlim nəticələrinin matrisi**

| Blokun adı | Fənlərin adı | PTN 1 | PTN 2 | PTN 3 | PTN 4 | PTN 5 | PTN 6 |
|---|---|---|---|---|---|---|---|
| Ümumi fənlər | Azərbaycan dilində işgüzar və akademik kommunikasiya | X | | | | | |
| | Azərbaycanın müasir dövlətçilik tarixi | X | | | | | |
| | Xarici dildə işgüzar və akademik kommunikasiya | X | | | | | |
| İxtisas fənləri | İxtisas-populyar musiqi və caz ifaçılığı (sahələr üzrə) | X | X | X | X | X | X |
| | Populyar musiqi və caz musiqisinin tarixi və nəzəriyyəsi | X | X | | | | |
| | Vokal ansabmlı | | | X | X | X | X |
| | Solfecio | X | X | | | | |
| | Multikulturalizmə giriş | X | | | | | |
| | Mülki müdafiə | X | | | | | |
| Təcrübə | | | | | | | |

| **İxtisas-populyar musiqi və caz ifaçılığı fənni üzrə təlim nəticələri (FTN)** | |
|---|---|
| FTN 1 | Populyar musiqi və caz ifaçılığının texniki vərdişlərinin formalaşmasına, peşəkar keyfiyyətlərə yiyələnmək |
| FTN 2 | Konsertmeysterlə iş birliyi bacarığına yiyələnmək |
| FTN 3 | Mənfi –fonoqram və mikrofonla işləmək bacarığına yiyələnmək |
| FTN 4 | Caz musiqisinin spesifik formaları (blyuz, ballada,standart ,geniş həcmli caz kompozisiyaları ) ilə bağlı nəzəri bilikləri mənimsəmək,əməli vərdişlər əldə etmək. |
| FTN 5 | Caz satandart üslubunun ifaçılıq xüsusiyyətlərini bilmək , improvizə etmək bacarığına və ritm səriştəsinə yiyələnmək |
| FTN 6 | Vokal-estrada və caz ifaçılıq sənətinin səhnə mədəniyyətinə yiyələnmək, ifa zamanı bədii obraz yaratmağı baçarmaq . |

| Populyar musiqi və caz musiqisinin tarixi və nəzəriyyəsi fənni üzrə təlim nəticələri (FTN) | |
|---|---|
| FTN 1 | Populyar musiqi və cazın mənşəyi (kantri, afro-amerika folkloru, şanson) haqqında biliklərə yiyələnmək. |
| FTN 2 | XX əsrin 50-ci illərində (rok-n-roll, skiffl), 60-ci illərində (tvist, soul, bit, hard-rok və s.), 70-ci illərində (art-rok, caz-rok, rok-opera, disko, reqqi, pank-rok) cazın inkişaf tarixini, cazın digər musiqi janrları ilə qarşılıqlı əlaqəsi ilə bağlı nəzəri biliklərə və praktiki vərdişlərə yiyələnmək |
| FTN 3 | XXI əsrdə cazın inkişaf xüsusiyyətləri ilə bağlı nəzəri biliklərə və praktiki vərdişlərə yiyələnmək |
| FTN 4 | Populyar musiqi və caz sənətinin görkəmli nümayəndələrinin – ifaçı və bəstəkarların yaradıcılığını bilmək. Caz standartlar haqqında məlumat əldə etmək; |
| FTN 5 | Spesifik caz üslubları (imorovizə,metroritmik xüsusiyyətlər, svinq,artikulyasiya,və s.) biliklərə yiyələnmək. və onları fəqndirməyi bacarmaq. |
| FTN 6 | Azərbaycanda populyar və caz musiqisinin yaranma və inkişaf tarixi, stilistika xüusiyyətlərini bilmək, onun musiqi sənətinin digər növləri ilə qarşılıqlı əlaqəsi ilə bağlı nəzəri biliklər əldə etmək . |

| Vokal ansamblı fənni üzrə təlim nəticələri (FTN) | |
|---|---|
| FTN 1 | Caz-vokal ansamblı ənənələrini, konsert-ansambl təcrübəsini öyrənmək; xarici və Azərbaycan musiqisində vokal ansabl ifaçılığının inkişaf mərhələlərini bilmək; |
| FTN 2 | Vokal ansamblının iş sistemini qavramalı və ansamblda oxuma bacarığına malik olmalıdır. |
| FTN 3 | Ansambl iştirakçıları birgə ifa zamanı əsərin ümumi məntiqinə, obrazına tabe olmağı bacarmalı, ifa zamanı intonasiyanın təmizliyinə etməli; |
| FTN 4 | Əsərlərdə çoxsəsli ifa texnikasına nail olmaq, vokal sənətinin əsas prinsipləri, metodları, qanunauyğunluqlarını mənimsəmək; |
| FTN 5 | Repertuara daxil olan əsərləri caz -vokal ansambl ifaçılıq aspektində dəyərləndirməyi bacarmaq; |
| FTN 6 | Müxtəlif üslub və janrda yazılan ansambl əsərlərini professional şəkildə təhlil etməli,əldə olunan bilikləri repertuarın hazırlanmasında hərtərəfli nümayiş etdirməlidir. Repertuara daxil olan əsərləri məhz ifaçılıq aspektində dəyərləndirməyi bacarmalıdır. |

| Solfejio fənni üzrə təlim nəticələri (FTN) | |
|---|---|
| FTN 1 | Musiqi üslublarının məqam və ritm xüsusiyyətlərini seçməyi bacarmalı, bəstəkar əsərlərinin və caz musiqisinin melodik xəttini sərbəst ifa etməyi bacarmalıdır. |

| | |
|---|---|
| FTN 2 | Caz ifaçılığı, vokal ansamblı və xor solfecionu mənimsəməlidir |
| FTN 3 | Fərqli quruluşlu musiqi səsləri, musiqi mətnini üzündən oxumağı bacarmalıdır |
| FTN 4 | Eşitmə qabiliyyətinə (melodik, harmonik, polifonik), mükəmməl ritmik hissiyatı və musiqi yaddaşına malik olmalıdır |
| FTN 5 | Musiqi parçalarını, xüsusən populyar musiqi və caz musiqisini eşitmə yolu ilə notlaşdırmağı bacarmalıdır, musiqinin elementlərini eşitmə yolu ilə müəyyən etməyi bacarmalıdır. |
| FTN 6 | Musiqi eşitmə qabiliyyətini (melodik, harmonik, polifonik), mükəmməl ritmik hissiyatı və musiqi yaddaşını mainkişaf etdirməlidir. |

| Multikulturalizmə giriş fənni üzrə təlim nəticələri (FTN) | |
|---|---|
| FTN 1 | Multikulturalizmin mahiyyəti, multikulturalizm sosial hadisə, siyasət modeli və həyat tərzi kimi, multikulturalizmin formalaşmasının əsas səbəbləri, multikulturalizmin assimilyasiya və izolyasiya siyasət modelləri ilə müqayisəli təhlili ilə bağlı biliklərə yiyələnmək |
| FTN 2 | Dinin mahiyyətinə və onun meydana gəlməsinə dair elm dünyasında irəli sürülən nəzəriyyələrlə tanış olmaq. İbtidai inanc formaları nəzərdən keçirilir, Buddizm, Xristianlıq və İslam kimi dünya dinlərindən, Yaxın Şərqdə meydana gəlmiş Zərdüştilik və İudaizm, Uzaq Şərqdə yaranmış Konfutsiçilik, Daosizm, Şintoizm, Cənubi Asiyada yayılmış Hinduizm, Caynizm, Siqhizm kimi milli dinlərdən, eləcə də qədim türk inancları barədə məlumatlanmaq |
| FTN 3 | Sovet və post-sovet elmi məkanında, habelə beynəlxalq miqyasda əldə edilmiş nəzəri müddəalara tanış olmaq , insanların tarixi birlik formaları, etnik kimlik və milli müəyyənlik problemi, etnik dəyərlər və milli mentalitet, milli şüurun və milli ideyanın formalaşmasında etnik dəyərlərin rolu barədə məlumatlar ədə etmək. |
| FTN 4 | Multikulturalizm siyasət modelinin mahiyyəti və əhəmiyyəti, onun assimilyasiya, izolyasiya və aparteid siyasət modelləri haqqında biliklər əldə etmək |
| FTN 5 | Multikulturalizmin ölkənin xarici siyasətinə təsiri, multikultural təhlükəsizlik barədə biliklər və media kimi bir sıra mühüm ictimai-siyasi əhəmiyyət kəsb edən aktual məsələlər barədə fikir yürütməyi baçanmaq. |
| FTN 6 | Multikulturalizmin Azərbaycan modelinin formalaşmasının obyektiv və subyektiv səbəbləri, xüsusiyyətləri, multikulturalizm siyasətinin həyata keçirilməsində Azərbaycan Respublikasının beynəlxalq təşkilatlarla əməkdaşlığı barədə ətraflı məlumatlar əldə etmək |

| Mülki müdafiə fənni üzrə təlim nəticələri (FTN) | |
|---|---|
| FTN 1 | Mülki müdafiənin əsasları, qüvvə və vasitələrini bilməlidir. |
| FTN 2 | Fövqəladə hallar və onların xarakteristikalarını bilməlidir. |
| FTN 3 | Fövqəladə hallarda əhalinin mühafizəsi, əhalinin mülki müdafiə üzrə maarifləndirilməsi haqqında biliklərə yiyələnməlidir. |
| FTN 4 | Fərdi və kollektiv mühafizə vasitələrindən istifadə etməyi bacarmalıdır. |
| FTN 5 | Fövqəladə hallarda sənaye obyektlərinin işinin dayanıqlığının əsaslarını və qiymətləndirilməsini bilməlidir. |
| FTN 6 | Fövqəladə halların nəticələrinin aradan qaldırılması yollarının təşkili və həyata keçirilməsi haqqında biliyə malik olmalıdır. |

Əlavə 3

**Fənnin təlim nəticələrinə nail olmaq məqsədilə istifadə olunan təlim və öyrənmə metodları və qiymətləndirmə üsulları**

| Fənnin adı | Təlim nəticələri | Hər bir təlim nəticəsi üçün istifadə olunan təlim və öyrənmə metodları | Hər bir təlim nəticəsi üçün istifadə olunar qiymətləndirm: üsulları |
|---|---|---|---|
| İxtisas-populyar musiqi və caz ifaçılığı | • Professional populyar musiqi və caz ifaçılığı texnikasını mənimsəyərək, müxtəlif üslublarda olan əsərlərin ifası üçün səs aparatının düzgün formalaşmasına nail olmaq, estrada və caz ifaçılıq sənətinin bacarıq və səriştələrinə yiyələnmək<br>• Vokal texniki vərdişlərin formalaşması nəticəsində peşəkar populyar musiqi və caz ifaçılığına yiyələnmək<br>• Konsertmeyster ilə iş birliyini bacarmaq;<br>• Azərbaycan bəstəkarlarının, populyar və caz musiqisi əsərləri barədə ətraflı biliklərə malik olmaq.<br>• Caz standart üslubunun ifaçılıq xüsusiyyətlərini, improvizə etməyi bacarmaq və ritm biliklərinə yiyələnmək .<br>• Vokal ifaçılıq sənətinin mədəniyyətinə yiyələnmək, ifa zamanı bədii obraz yarada bilmək. | Fərdi təqdimatlar, fərdi nümunələr və müzakirələr. | Fərdi təqdimatla fərdi təcrübə hesabatları; |
| Populyar musiqi və caz musiqisinin tarixi və nəzəriyyəsi | Populyar və caz musiqisinin yaranması, ötən əsrlərdən müasir | mühazirə;<br>seminarlar;<br>hesabatlar; | yazılı tapşırıqlar;<br>şifahi təqdimatlar; |

| | | | |
|---|---|---|---|
| | və bəstəkarlarının yaradıcılığını öyrənmək;<br>Cazın kompozisiya quruluşu, improvizə və inkişaf prinsiplərini bilmək;<br>Caz standartlar haqqında biliklərə yiyələnmək<br>Caz musiqisinin üslublarını bilmək və fəqliliyini təyin etmək bacarığına yiyələnmək<br>Azərbaycanda caz musiqisinin yaranma və inkişaf tarixini bilmək; | | |
| Vokal ansamblı | Vokal ansamblı ənənələrini mənimsəmək, konsert-ansambl təcrübəsinə yiyələnmək;<br>Xarici və Azərbaycan musiqisində vokal ansamblı ifaçılığın inkişaf mərhələlərini bilmək;<br>• Ansambl iştirakçıları birgə ifa zamanı əsərin ümumi məntiqinə, obrazına tabe olmağı öyrənməli, ifa zamanı intonasiyanın təmizliyinə daimi nəzarət etməli;<br>• Vokal ansamblı tərkibində çoxsəsli ifa texnikasına nail olmaq, vokal sənətinin əsas prinsipləri, metodları, qanunauyğunluqlarını mənimsəmək;<br>• Müxtəlif üslub və janrlarda yazılan ansambl əsərlərini professional şəkildə təhlil etməyi bacarmaq ;<br>• Repertuara daxil olan əsərləri estrada və caz ifaşılığı aspektində dəyərləndirməyi bacarmaq. | təqdimatlar,əməli və fərdi nümunələr və müzakirələr. | təqdimatlar; təcrü hesabatları. |
| Musiqi nəzəriyyəsi | • Kursun nəzəri materiallarını bütünlüklə mənimsəmək;<br>• Not mətni ilə işləməyi bacarımaq<br>• Musiqi mətnini dəqiqliklə | Təqdimatlar; fərdi və əməli nümunələr və müzakirələr. | Təqdimatlar; təcr hesabatları |

| | | | |
|---|---|---|---|
| | • Repertuara daxil olan əsərləri estrada və caz ifaşılığı aspektində dəyərləndirməyi bacarmaq. | | |
| Musiqi nəzəriyyəsi | • Kursun nəzəri materiallarını bütünlüklə mənimsəmək;<br>• Not mətni ilə işləməyi bacarımaq<br>• Musiqi mətnini dəqiqliklə yazıya almağı bacarımaq;<br>• Müxtəlif məqam sistemlərinin yaranma prinsiplərini bilmək;<br>• Müasir notasiyanın əsas üsullarını bilmək; | Təqdimatlar; fərdi və əməli nümunələr və müzakirələr. | Təqdimatlar; təcrübə hesabatla |
| Multikulturalizmə giriş | • Multikulturalizmin mahiyyəti, multikulturalizm sosial hadisə, siyasət modeli və həyat tərzi kimi müqayisəli təhlili ilə bağlı biliklərə yiyələnmək<br>• Dinin mahiyyətinə və onun meydana gəlməsinə dair elm dünyasında irəli sürülən nəzəriyyələrlə tanış olmaq. .<br>• Multikulturalizmin ölkənin xarici siyasətinə təsiri, multikultural təhlükəsizlik barədə biliklər və media kimi bir sıra mühüm ictimai-siyasi əhəmiyyət kəsb edən aktual məsələlər barədə fikir yürütməyi bacanmaq.<br>• Multikulturalizmin Azərbaycan modelinin formalaşmasının obyektiv və subyektiv səbəbləri, xüsusiyyətləri barədə biliklərə yiyələnmək. | mühazirə;<br>seminarlar;<br>hesabatlar;<br>təqdimatlar və müzakirələr. | yazılı tapşırıqlar;<br>şifahi təqdimatlar;<br>təcrübə hesabatla<br>frontal sorğu. |
| Mülki müdafiə | ▪ Mülki müdafiənin əsasları, qüvvə və vasitələrini, fövqəladə hallar və onların xarakteristikalarını bilməli; | mühazirə;<br>seminarlar;<br>hesabatlar; | yazılı tapşırıqlar;<br>şifahi təqdimatlar;<br>frontal sorğu. |

| | | | |
|---|---|---|---|
| | ▪ Fövqəladə hallarda əhalinin mühafizəsini, əhalinin mülki müdafiə üzrə maarifləndirilməsini, fərdi və kollektiv mühafizə vasitələrindən istifadə etməyi bacarmalı;<br>• Fövqəladə hallarda sənaye obyektlərinin işinin dayanıqlığının əsaslarını və qiymətləndirilməsini, həmçinin fövqəladə halların nəticələrinin aradan qaldırılması yollarının təşkilini və həyata keçirilməsini mənimsəməli. | təqdimatlar və müzakirələr. | |